# YANAN ÜRƏYİN TÜRKÜLƏRİ, YAXUD ZƏFƏR YOLUNUN SALNAMƏSİ

## (Mahirə Nağıqızının yaradıcılığı haqqında milli ədəbi proses kontekstində düşüncələr)



**TƏYYAR SALAMOĞLU**

### V YAZI

**Otuz illik ağrılarımızın yanan ürəyin türkülərində poetikləşən salnaməsi**

"Xocalı"dan, "20 Yanvar qatarı"dan intiqam hissinə atılan körpü-keçidlər poetik sözün məramı, baş məqsədi kimi önə çıxır. Şairənin ana səsi, ana çağırışları qulağımızda aramsız səslənir, qolunda təpər olanları Vətən naminə intiqama, döyüşə çağırır:

Nə oğuldur intiqamım almasa,
Son-söyləyir göz yaşına, son-yasa.
Haqqın özü qalxar bir gün qısasa,
Xalqıma yol yoldaşıdı Xocalı.

Yetir işi sona, səsin susmasın,
Nağıqızı, ana səsin susmasın,
Susanları qına, səsin susmasın,
Susanların qarğışıdı Xocalı.

Mahirənin Vətən oğullarını intiqam hissinə köklənməsi, intiqama çağırışları ancaq varlığını saran ağrılardan irəli gələn hissi-emosional əhvali-ruhiyyədən irəli gəlmir. O, baş verən hadisələri real tarixi şəraitlə sıx əlaqədə dərk edir. Torpaq itgilərimizin, soydaşlarımızın min illik dədə-baba torpaqlarından didərgin düşməsinin, nəhayət, Birinci Qarabağ savaşında itirdiklərimizin o zaman hakimiyyətdə olanların səriştəsizliklərindən, xalqla hakimiyyət arasında uçurumun get-gedə dərinləşməsindən, kreslo davalarından qaynaqlandığını çox yaxşı bilir. Siyasi-ictimai mühiti daim analiz edir, 1993-cü ildə xalqın ayıq düşüncəyə söykənən seçim etdiyini - Heydər Əliyevin hakimiyyətə gəlişini xalqımızın və dövlətçiliyimizin tarixində çox ciddi mərhələnin başlanğıcı, dönüş mərhələsi kimi dərk edir.

Mahirənin rasiional düşüncəsi mərhələ dönüşünü torpaqlarımızın geri qaytarılmasına bəslənən ümid kimi başa düşür. Başa düşdüklərini poetik sözə çevirir, beləliklə "Heydər baba dastanı" yaranır. Bu "dastan"da Heydər Əliyevin qayıdışından əvvəlki vaxtı - siyasi hərc-mərclik dövrünü şairə belə səciyyələndirir:

Tale küskün, düşmən zalım, ümid yox,
Ər gərəkdi: Ürək isti, baş soyuq.

Mahirəyə görə, "isti ürəkli, soyuq başlı ər"in qayıdışı ilə birlikdə xalqın yaşamağa da, torpaqlarımızın əsirlikdən qurtaracağına inamı da, gümanı da qayıtdı. Mahirə özünün dastan qəhrəmanını məhz bu inam və güman işığında vəsf edir. Onun "vəsf"ində həqiqi bir dastan ruhu var. Ozan, el aşığı xalqının saysız-hesabsız igidliklər göstərmiş qəhrəman oğlunu qopuzunun, sazının simlərində necə öyər, necə vəsf edərsə, elə vəsf edir. Bu "vəsf"də el aşığının meydanda gərdiş edə-edə mizrabı sazın simlərinə necə inam və ürəklə, coşqu ilə toxundurduğunu gözlərimizlə görür kimi bir hal yaşayırıq:

Haqq işini görmək üçün qayıtdın,
Haqqa güman vermək üçün qayıtdın,
Xalqa inam vermək üçün qayıtdın,
Bu tarixdir, bir nəfəsdən oxunur.

Sən qaytardın perik düşən gümanı,
Sən gətirdin içimizə inamı.
Bu tarixdir, hamı bilir olanı,
Yazılanlar uca səsdən oxunur.

Şairənin analitik bədii düşüncəsi inkişaf edən, bir-birini əvəz edən hadisələr arasındakı zəncirvari əlaqəni, birinin o birindən doğulmasını, Heydər Əliyevin dövlətimizi parçalanmaqdan, dövlətçiliyimizi zəifləməkdən qoruması, onun uzaqgörən siyasətinin bir dövlət kimi Azərbaycanın get-gedə möhkəmlən-



məsi ilə nəticələnməsi, türk-müsəlman dünyası ilə qurduğu əlaqələrin intensivliyi və səmərəliliyi, soy birliyi və din birliyindən qaynaqlanan əlaqələri pik həddinə çatdırması, "Əsrin müqaviləsi" ilə, müəyyən mənada, dünyanı öz dövlətinin təsiri altında saxlamasını erməni faşizminə qarşı aparılacaq mübarizənin, qələbəmizi təmin edəcək mübarizənin təməl prinsipləri kimi dərk edir; Bu təməl prinsiplərin çağdaş zamanda dövlətçilik siyasətimizin əsasında dayanmasını, cənab İlham Əliyevin siyasi estafeti uğurla davam etdirməsinə ümidlərini dilə gətirir. "Aprel doyüşləri"ndən, "Günnüt zəfəri"ndən sonra ümidin inama çevrilməsi onda Azərbaycan xalqının bundan sonrakı yolunun Qələbədən keçəcəyini milli ictimai düşüncəyə qətiyyətlə ötürməsinə psixoloji əsas yaradır. Mahirə on yeddinci ilin gərgin siyasi ab-havasında o qələbə gününün uzaqda olmadığına dair öz sənətkar bəyanatını verir:

Qarabağda havalanar dost ünü,
İlham bizə gətirəcək o günü.
Görəcəyik xalq qurubdu düyünü,
Heydər baba-deyib dastan oxunur.

Qələbəyə gedən yolun ilk cığırlarını açan on altı-on səkkizinci illərdə Mahirə şeirinə tam bir səfərbərlik ruhu hakim kəsilir. Sənətkar istedadının təlqinləri ilə geriyə dönüşün olmadığını, başladığımız işin sona çatdırılması zərurətini başa düşür və buna görə də millət övladlarını psixoloji cəhətdən mübarizəyə, dönməzliyə, təsəvvür edilməsi belə çətin olan qəhrəmanlıqlara hazırlayır. "Aprel döyüşləri"ndə ordumuzun və xalqımızın göstərdiyi böyük rəşadət, Ali Baş Komandanın vulkan kimi püskürən sərkərdəlik istedadı Mahirəyə Qələbəyə aparan "yol xəritəsi"ni cızmağa əsas verir. Sonradan baş verənləri - Qələbəmizi təmin edən döyüşləri, başqa sözlə, "Dəmir yumruq" əməliyyatlarını təsəvvürümüzə gətirsək, şairənin təqdim etdiyi "yol xəritəsi"nə də diqqət yetirsək, şair xəyalı ilə təsəvvür edilənlərin dəqiqliyi heyrət doğurur:

Azərbaycan əsgəri, yolun Şuşaya gedər,
O yürüşün naminə son döyüşə hazır ol!
İntizarda Laçındır, Zəngilandır, Kəlbəcər,
Pir görüşün naminə, son döyüşə hazır ol!

Mahirə "son döyüş"ə gedən yolun mənəvi-psixoloji əsaslarını çox yaxşı bilir. Onun üçün "son döyüş"ə gedən yol analarımızın mətinliyindən, hüdudsuz mübarizə əzmindən keçir. Onun üçün "son döyüş"ə gedən yol ordumuz ilə Ali Baş Komandanımız, Ali Baş Komandanımızla millətimiz arasındakı sarsılmaz birlikdən, birinin o birinə sonsuz sevgisindən keçir; Bir millətin böyüyünün də, kiçiyinin də, kişisinin də, qadınının da, əsgərinin də, Ali Baş Komandanın da bir amala köklənməsindən keçir. Mahirəyə sadəcə bu həqiqəti görmək, poetik sözün qüdrəti ilə bəyan etmək qalır:

Bəxtəvər o anadır, yurdu üçün ər verə,
Oğul doğa, böyüdə, Vətənə əsgər verə.
Millətinin adına Tanrı bəxtəvər verə,
O alqışın naminə, son döyüşə hazır ol!
Artıq bizim səbrimiz doldu, komandan - dedin,
Baş komandan vur! - dedi. Oldu, komandan!
- dedin.
Siz göstərən yönüm-yön, yoldu, komandan! - dedin,
Dirənişin naminə, son döyüşə hazır ol!

20 sentyabr 2020-ci il...Döyüş başlanan gün! Ali Baş Komandanın əmr verdiyi gün və M.Nağıqızının həmin gün yazılan "Get" şeiri...

Payız gəldi, ağacların bar vaxtıdır,
Dəymiş vüsal meyvəsini dərməyə get.
Sualların cavabın al, vaxtıdır,
Sinəsi cat torpaqları görməyə get...

"Get" rədifi ilə poetikləşdirilən məqamları şairənin vətəndaş mövqeyinin ifadəsi kimi də təfsir etmək olar, ancaq burda nöqtə qoymaq olmaz. Çünki başdan ayağa döyüş ruhuna köklənmiş misralar, bəndlər sanki Ali Baş Komandanın həmin gün "cavab atəşinin açılması" ilə bağlı gəldiyi qərarın və verdiyi əmrin mənəvi-psixoloji əsaslarını ortaya qoyur. "Əmr", əlbəttə, beynin, məntiqi düşüncənin, siyasətin, dövlətçilik təcrübəsinin nəticəsidir, hərb qanunlarından çıxışın göstəricisidir. Ancaq bu "Əmr" həm də Ali Baş Komandanın ürəyinin səsidir. Uzun illər ürəyində yığılıb qalan doğma torpaq nisgilinin, ayrılığı vüsalla əvəz etmək ehtirasının vulkan kimi püskürməsidir.

İllər keçdi, o gündən ki, yaralandım,
Yağı vurdu, param-parça paralandım.
- ağrısının doğurduğu intiqam hissinin bədii əksidir.

Get, gözləyir Laçın səni, Şuşam səni,
Bulaq üstə süfrəmizi sərməyə get.

Bu və aşağıdakı misralar məgər "Qarabağ Ermənistandır və nöqtə" deyən, dünya siyasətində naşılığın simvolu kimi yadda qalan erməni baş nazirinə Prezidentimizin "Qarabağ Azərbaycandır və nida işarəsi" cavabının əməli işə çevrilməsindən doğan poetik təəssüratlar deyilmi?

Gücün sənin - bu dünyada olan haqqım,
Göz dağımdır düşmanımda qalan haqqım.
Yağı versin: o can haqqım, bu qan haqqım,
Haqq sənindir, öz haqqını almağa get.

"Get" rədifi "nida işarəsi"ni simvollaşdıran çağırış kimi analı-balalı, böyüklü-kiçikli bütün Azərbaycan vətəndaşlarının ürək sözünü ifadə edir, Azərbaycanın səsidir, Azərbaycan xalqının birmənalı mövqeyidir:

Bərkiyibsən tənə, qınaq sınağında,
Get, qalmayaq bu dünyanın qınağında.
Özü seçib, boğulsun qan çanağında,
Tarix yarat, kitabında qalmağa get!

*2025*